# ŞƏKİ: ƏFSANƏVİ İPƏK YOLUNDAKI ŞƏHƏR

**...Azərbaycan müstəqillik, inkişaf yolu il gedir. Bir neçə il bundan əvvəl dünyanı bürümüş iqtisadi və maliyyə böhranı, eyni zamanda bölgədə baş verən xoşagəlməz hadisələr, toqquşmalar Azərbaycanın uğurlu inkişafına təsir etməmişdir. Bunun başlıca səbəbi Azərbaycanda ictimai-siyasi vəziyyətin sabit olmasıdır, xalqla iqtidarın arasındakı birlikdir və bizim bütün proqnozlarımızın uğurlu icrasıdır... Cənab Prezidentin dərin məzmunlu gətirdiyimiz bu fikir ölkəmizin ictimai-siyasi arenada təsdiqlənən mövqeyini əks etdirir. Bir növ Azərbaycan reallığının spektrini işıqlandırır. Müdrikcəsinə söylənən "xalqla iqtidar arasında birliyin" əbədi və sarsılmaz olduğunu az qala bütün il böyü görür və yaşayırıq. Cənab Prezidentin ilin əvvəlindən bəri imzaladığı bir çox mühüm sənədlər, xalqla görüşləri, istiqanlı, mehriban söhbətləri bütün bunları bir daha təsdiq edir.**



Son illər yalnız uğurlu inkişaf yolu ilə göstərilən qayğı və diqqəti doğruldan Şəki şəhərində də belədir. Sakinlər bütün görülən işlərə, yeniliklərə və Şəkinin daha da şöhrətlənməsinə göstərdiyi böyük diqqətə görə həmişə Azərbaycan



Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlıq edirlər.

...Təcrübəli və ziyalı bir şəxs olaraq həmişə onlarla bir yerdə olan, neçə-neçə beynəlxalq tədbirləri birlikdə keçirdikləri icra başçısı Elxan Usubova görə də... Vətənsevərliyi və əməyi yüksək qiymətləndirilən rayon rəhbəri bu mənada həmişə rahat və nikbindir. Gözəl duyğulardır. Eyni zamanda gözəl örnəkdir. Beləcə yüksək ovqatla müzakirə edilən 2019-cu ilin birinci yarısının yekunları rayon həyatında yaşanan adi günlərdən biri idi. Çünki burada yaşanan hər günün davamlı özünəməxsusluğu var.

Yığıncaqda geniş məruzə ilə çıxış edən Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov demişdir:

- Sevindirici haldır ki, ölkəmizdə mədəni irsin qorunub saxlanılmasına, xalqımızın zəngin mədəniyyətinin təbliğinə dövlət səviyyəsində böyük diqqət yetirilir . Şəkinin beynəlxalq turizm və mədəniyyət mərkəzi kimi yenidən qurulması ilə əlaqədar cənab Prezidentimizin verdiyi tapşırıqlar, qısa müddət ərzində Şəki şəhərinin inkişafı ilə bağlı imzalanan coxsaylı Sərəncamlar nəticəsində bu gün şəhər milli memarlıq üslubunu qorunub saxlamaq şərti ilə müasirləşir , regionun turizm potensialı daha da artır. Azərbaycan Respublikasının birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə şərq memarlığının nadir incisi hesab olunan "Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin YUNESKO-nun Ümumdünya İrs Komitəsinin siyahısına daxil edilməsi ölkəmizin mədəni həyatında böyük hadisədir.

Mən Sizi , şəhərimizin bütün sakinlərini bu tarixi hadisə münasibətilə ürəkdən təbrik edir, xalqımızın mədəni irsinin qorunub saxlanmasına və təbliğ olunmasına xüsusi diqqət və qayğı ilə yanaşan cənab Prezidentimiz İlham Əliyevə , Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanıma, ölkəmizin YUNESKO yanındakı Daimi Nümayəndəliyinə, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə minnətdarlığımı bildirir bu işdə əməyi olan hər bir kəsə təşəkkür edirəm.

İyulun 7-də Bakı Konqres Mərkəzində keçirilən UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının növbəti iclasında əvvəlcə Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (ICOMOS) hesabatı dinlənilmişdir. Hesabatda Şəki şəhəri haqqında məlumat verilmiş və bildirilmişdir ki, şəhərin tarixi hissəsində yerləşən Xan Sarayı 2001-ci il oktyabrın 24-də UNESKO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin İlkin siyahısına daxil edilmişdir.

Hesabatda Şəki ilə bağlı faylın 2017-ci ildə Polşanın Krakov şəhərində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 41-ci sessiyasında ölkəmiz tərəfindən təqdim edilən "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiyanın müzakirə olunduğu diqqətə çatdırılmışdır.

Müzakirələr zamanı Küveyt, Anqola, Çin, Bəhreyn, Braziliya, İndoneziya, Tanzaniya, Tunis, Qırğızıstan, Bosniya və Herseqovina, Uqanda, Norveç, Zimbabve, Burkina-Faso, İspaniya, Qvatemala, Avstraliya bu nominasiyanın Dünya İrs Siyahısına salınmasının vacibliyini vurğulamış , faylın qəbulunu məqsədəuyğun hesab etmişdilər. Azərbaycanın nümayəndəsi çıxış edərək bildirmişdir ki ,bu nominasiya ilə bağlı altı il yerli və beynəlxalq ekspertlər əraziyə dəvət olunmuş. ICOMOS-un tövsiyəsi bağlı ciddi işlər görülmüş, yeni idarəetmə strukturu formalaşdırılmış və bir sıra qərarlar qəbul olunmuşdur. Demək olar ki, hər il YUNESKO-nun ekspertləri Şəkiyə səfər etmiş , ərazi dərindən araşdırılmış, şəhər rəhbərliyi keçirilən görüşlərdə layihə ilə bağlı fikir mübadiləsi aparılmış, gələcək planlar müzakirə olunmuş, Şəki şəhərinin tarixi hissəsində yerləşən mədəni irsin qorunması , ərazidə bərpa, yenidənqurma, konservasiya, təmir, yeni tikinti, abadlıq, bədii tərtibat işlərinə nəzarətin daha da gücləndirilməsi, mədəni irsə zərər vurulmasının qarşısının alınması məqsədilə maarifləndirmə işlərinin aparılması nəzərdə tutulmuşdur. Müzakirələrdən sonra "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiya UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir.

Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva xalqımızı təbrik etmişdir.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Azərbaycan Respublikasının "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi ilə bağlı bəyanat yaymış bu münasibətlə bütün türk dünyasını təbrik etmişdir.

UNESKO üzrə Türkiyə Respublikası Milli Komissiyasının sədri, professor Öcal Oğuz bildirmişdir ki,"Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiyanın UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi Azərbaycanın növbəti tarixi nailiyyətidir. Bu uğuru qazanmaq üçün Azərbaycan uzun illər səmərəli fəaliyyət göstərib.



İndi isə 2019-cu ilin I yarısında rayonun sosial-iqtisadi inkişafının yekunları ilə tanışlıq.

2019-cu ilin I yarısında ilkin hesablamalara görə faktiki qiymətlərlə 242 milyon 025 min manatlıq məhsul buraxılmışdır ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 98 faiz təşkil edir. Buraxılmış məhsulun 9 faizi dövlət, 91 faizi isə qeyri- dövlət mülkiyyətinin payına düşür. Adambaşına faktiki qiymətlərlə 1293 manatlıq məhsul buraxılmışdır. Rayon üzrə orta aylıq əmək haqqı 342 manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 62 manat çoxdur. 2019-cu ilin birinci yarısında bütün maliyyə mənbələri hesabına iqtisadiyyatın inkişafına yönəldilən investisiyanın ümumi həcmi 59 milyon 214 min manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 165 faiz təşkil edir. İstifadə edilmiş investisiyanın 90,4 faizi dövlət mülkiyyətinin, 9,6 faizi qeyri-dövlət mülkiyyətinin payına düşür.2019-cu ilin birinci yarısında əsas kapitala yönəldilmiş investisiyanın 94,3 faizi tikinti quraşdırma işlərinə sərf edilmişdir ki, bu da əvvəlki ilin müvafik dövrü ilə müqayisədə 161 faiz təşkil edir. 2019-cu ilin I yarısında Şəki rayonunda 1091 yeni iş yeri açılmışdır ki,onların da hamısı daimi iş yerləridir. Bu iş yerlərinin 4,2 faizi yeni yaradılmış müəssisə və təşkilatların, 23,7 faizi mövcud müəssisə və təşkilatların, 72,1 faizi fiziki şəxslərin payına düşür. Ümumiyyətlə 01 oktyabr 2003-cü il tarixdən 01 iyul 2019-cu il tarixədək rayonumuzda 24153 yeni iş yeri açılmışdır ki, onun da 96,4 faizi daimi iş yerləridir. 2019-cu ilin I yarısında Şəki rayonunda əmtəə dövriyyəsinin ümumi həcmi 233 milyon 675 min manat olmuşdur . Əvvəlki ilin müvafiq dövrünə nisbətən əmtəə dövriyyəsinin həcmi yəni 1,7 faiz artmışdır. Hazırda rayonumuzda 21 sənaye müəssisəsi fəaliyyət göstərir ki, bunların da 9-u kiçik müəssisədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daxili siyasətinin əsas istiqamətlərindən biri də sahibkarlığın inkişaf etdirilməsidir. Bu gün ölkəmizdə sahibkarlara böyük diqqət vardır. Onlar həm siyasi, həm də maddi tərəfdən dəstəklənir. Sahibkarlığın inkişaf etdirilməsi istiqamətində Şəkidə bir sıra konkret tədbirlər həyata keçirilmişdir Azərbaycan Respublikası Prezidentinin "Dövlət sahibkarın ən yaxşı tərəfdaşıdır" strateji xəttinə uyğun olaraq "KOB Dostu" mexanizmi dövlət-sahibkar əməkdaşlıq platforması əsasında formalaşan mühüm bir layihədir. "KOB Dostu" fəaliyyət göstərdiyi şəhər və rayonlarda kiçik və orta biznes subyektlərinin potensial imkanlarının müəyyən edilməsi və reallaşdırılmasına, yeni sahibkarlıq subyektlərinin yaradılması və inkişafına, eləcə də kiçik və orta sahibkarların hüquqlarının müdafiəsinə dəstək göstərir. Mayın 30-da Şəki şəhərində İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin "Kiçik və Orta Biznesin Dostu" fəaliyyətə başlamışdır. Heydər Əliyev Mərkəzində bu məqsədlə keçirilən tədbirdə aidiyyəti dövlət qurumlarının və Şəki-Zaqatala iqtisadi rayonu üzrə fəaliyyət göstərən sahibkarlar iştirak etmişdir.

**(ardı növbəti sayımızda)**

**Məzahir ƏHMƏDZADƏ**